**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

______________

10.04.2023-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Maliyyə bazarlarının inkişafı və kreditlərin əlçatanlığı" işçi qrupunun 2023-cü il üzrə Fəaliyyət Planı**

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət *(son hesabat üzrə)* | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | | | | | |
| 1. | **9.01 Özəl sektora daxili kredit qoyuluşları**<br><br>***Qlobal İnnovasiya İndeksi***<br><br>**(4.1.2 Özəl sektora daxili kredit qoyuluşları)** | 97-ci yer, 32,8 bal<br><br>104-cü yer, 26,1 bal | Özəl sektora daxili kredit qoyuluşlarının ÜDM-də payı, %-lə | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Lizinq fəaliyyətini tənzimləyən vahid qanunun qəbul edilməsi prosesinin sürətləndirilməsi; | İl ərzində | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası və Azərbaycan Mikromaliyyə Assosiasiyası cəlb edilməklə) | Rəna Məlikova, Xəyyam İsmayılov, Yunus Abdulov, Jalə Hacıyeva |
| | | | | **2.** Faktorinq əməliyyatlarının genişləndirilməsi üzrə hüquqi və requlyativ çərçivənin formalaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi; | İl ərzində | İqtisadiyyat Nazirliyi (o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)), Mərkəzi Bank | Mehdi Həsənov, Rüstəm Tahirov, İlkin Əliyev |
| | | | | **3.** Real sektorun kreditləşməsini artırmaq üçün əlavə stimullaşdırıcı tədbirlərin (kapital tələbində yumşalmalar, ehtiyatlanma dərəcəsinin azaldılması, vergi güzəştləri, dövlət dəstəyi və s.) müəyyən edilməsi imkanlarına baxılması və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi. | 01.12.2023 | Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası cəlb edilməklə), İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Leyla Nəbiyeva, Mehdi Həsənov, İlkin Əliyev, Yunus Abdulov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2. | **9.02 KOS-ların maliyyələşdi-rilməsi** | 24-cü yer, 61 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən Rəhbərlərin Rəyi Sorğusunda “Ölkənizdə kiçik və orta ölçülü müəssisələr (KOM) öz biznes fəaliyyətləri üçün lazım olan maliyyələşməni maliyyə sektoru vasitəsilə nə dərəcədə əldə edə bilirlər?” sualına cavab [1 = əldə edə bilmirlər; 7 = yüksək dərəcədə əldə edə bilirlər]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** KOS-ların 15 min manat məbləğinədək girovsuz və zaminsiz kredit əldə etmək imkanlarını genişləndirən mexanizmlərin tətbiqi ilə əlaqədar zəruri təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi; | 01.07.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA), Mərkəzi Bank | Mehdi Həsənov |
| | | | | **2.** KOS-ların maliyyələşməsi üçün kredit təşkilatlarının aidiyyəti qurumların məlumat bazasına çıxışının yaxşılaşdırılması imkanlarının araşdırılması və müvafiq təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi. | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti və KOBİA), Kənd Təsərrüfatı Nazirliyi, Mərkəzi Bank (Azərbaycan Banklar Assosiasiyası və Azərbaycan Mikromaliyyə Assosiasiyası cəlb edilməklə) | Mehdi Həsənov, İlkin Əliyev, Anar Quliyev, Yunus Abdulov, Jalə Hacıyeva |
| 3. | **9.03 Vençur kapitalının əlçatanlığı** | 24-cü yer, 52 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən Rəhbərlərin Rəyi Sorğusunda “Ölkənizdə innovativ, eləcə də riskli layihələri olan startap sahibkarları üçün maliyyələşməni təmin edəcək sərmayəçi tapmaq nə dərəcədə asandır?” sualına cavab [1 = olduqca çətindir; 7 = çox asandır]. | Startap layihələrinin maliyyələşdirilməsi istiqamətində investorlarla əməkdaşlığın genişləndirilməsi və zəruri maarifləndirmə işlərinin aparılması. | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Mehdi Həsənov, İlkin Əliyev |
| 4. | **9.04 Bazar kapitallaşması** | 110-cu yer, 4,5 bal | Listinqdə olan bütün yerli şirkətlərin ümumi dəyərinin ÜDM-ə nisbəti, %-lə. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Bakı Fond Birjasında (BFB-də) listinqdə olan səhmdar cəmiyyətlərin sayının artırılması və ümumilikdə BFB-nin bazar kapitallaşmasının yüksəldilməsi məqsədilə stimullaşdırıcı və maarifləndirici tədbirlərin həyata keçirilməsi; | İl ərzində | Mərkəzi Bank | Umeyra İbrahimova |
| | | | | **2.** Kapital bazarında investisiya qiymətli kağızlarının kütləvi təklifinin stimullaşdırılması və özəl sektorun maliyyələşmə imkanlarının artırılması məqsədilə maliyyə stimullarının tətbiq edilməsi; | 01.10.2023 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **3.** İnvestorların kapital bazarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə, fond birjası vasitəsilə məsafədən elektron ticarətə imkan verən müvafiq infrastrukturun yaradılması; | | | |
| | | | | **4.** BFB tərəfindən həyata keçirilən Listinq Məsləhət Proqramı çərçivəsində kapital bazarına maliyyələşmə təşəbbüsü ilə müraciət edən şirkətlərin dəstəklənməsi üçün sertifikatlı təlim proqramlarının təşkili, məlumatlandırıcı bildiriş və bukletlərin göndərilməsi və sosial şəbəkələrdə təbliğat işinin aparılması; | İl ərzində | | |
| | | | | **5.** Qiymətli kağızlar bazarında əlverişli vergi mühitinin formalaşdırılması məqsədilə Vergilər Məcəlləsinə dəyişikliklərin edilməsi üzrə layihə qüvvəyə mindikdən sonra, həmin dəyişikliklərin geniş ictimaiyyətə, xüsusilə biznes subyektlərinə çatdırılması üzrə müvafiq tədbirlərin görülməsi; | Layihə qüvvəyə mindikdən sonrakı rüb ərzində | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (Dövlət Vergi Xidməti) | Umeyra İbrahimova, Mehdi Həsənov |
| | | | | **6.** Mərkəzi Bank tərəfindən istifadəyə verilmiş "Qiymətli kağızların emissiyası sistemi" barədə emitentlərin və biznes ictimaiyyətinin məlumatlandırılması üzrə müvafiq tədbirlərin həyata keçirilməsi; | 01.07.2023 | Mərkəzi Bank | Umeyra İbrahimova |
| | | | | **7.** Regionlarda fəaliyyət göstərən kiçik və orta biznes təmsilçilərinin, o cümlədən biznesə yeni başlayan subyektlərin kapital bazarı vasitəsilə maliyyələşməsinə, mövcud bizneslərinin inkişafına və korporativ idarəetmə standartlarının təşviqinə dəstək göstərilməsi, kapital bazarı və BFB-də listinqin üstünlükləri barədə məlumatlandırılması məqsədilə KOBİA ilə birlikdə investisiya səfərlərinin təşkil edilməsi; | 01.12.2023 | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (KOBİA) | Umeyra İbrahimova, İlkin Əliyev |
| | | | | **8.** Bazar kapitallaşması indikatoru üzrə ölkə barədə məlumatların müvafiq beynəlxalq təşkilata (World Federation of Exchange) müntəzəm qaydada ötürülməsinin təmin edilməsi. | 01.09.2023 | Mərkəzi Bank | Umeyra İbrahimova |

<table>
<tr><td>5.</td><td>9.05 Sığorta haqları</td><td>118-ci yer, 9,5 bal</td><td>Həyat və qeyri-həyat sığortası haqlarının həcminin ÜDM-ə nisbəti, %-lə</td><td>Sığorta sahəsində maarifləndirmə və təbliğatın genişləndirilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi.</td><td>İl ərzində</td><td>Mərkəzi Bank (Azərbaycan Sığortaçılar Assosiasiyası cəlb edilməklə)</td><td>Vüsal Qurbanov, Elmar Mirsalayev</td></tr>
<tr><td rowspan="3">6.</td><td rowspan="3">9.06 Bankların sağlamlığı</td><td rowspan="3">77-ci yer, 65,6 bal</td><td rowspan="3">Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən Rəhbərlərin Rəyi Sorğusunda “Ölkənizdə bankların sağlamlığını necə qiymətləndirirsiniz?” sualına cavab [1 = olduqca aşağı, bankların kapitallaşma ehtiyacı var; 7= olduqca yüksək].</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Banklar üzərində mövcud tənzimləmə çərçivəsinə müvafiq olaraq nəzarətin həyata keçirilməsi və kapitallaşma səviyyəsinin monitorinqinin aparılması;</td><td>Mütəmadi</td><td>Mərkəzi Bank</td><td>Samir Rzayev</td></tr>
<tr><td>2. Bankların korporativ idarəetmə, risklərin idarə edilməsi və daxili nəzarət sisteminin təkmilləşdirilməsi məqsədilə bu sahədə mütərəqqi təcrübələrin araşdırılaraq tənzimləmə çərçivəsinə tətbiq edilməsi.</td><td>01.12.2023</td><td>Mərkəzi Bank</td><td>Leyla Nəbiyeva</td></tr>
<tr><td>7.</td><td>9.07 Kredit portfelində qeyri-işlək kreditlərin çəkisi</td><td>123-cü yer, 73,1 bal</td><td>Ölkədəki bankların qeyri-işlək kreditlərinin məbləğinin onların kredit portfelinin cəminə nisbəti</td><td>Bank sektorunun inkişafı strategiyasının layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi.</td><td>01.06.2023</td><td>Mərkəzi Bank</td><td>Rüstəm Tahirov, Leyla Nəbiyeva, Fuad İsayev</td></tr>
<tr><td colspan="8">İqtisadi Azadlıq İndeksi</td></tr>
<tr><td rowspan="4">8.</td><td rowspan="4">4.3 Maliyyə azadlığı</td><td rowspan="4">60 bal</td><td rowspan="4">İndeksin hesablanması aşağıdakı 5 alt-indikator əsasında aparılır:<br>1. Hökumət tərəfindən maliyyə sektorunun tənzimlənmə dərəcəsi;<br>2. Hökumətin banklara və digər maliyyə təşkilatlarına müdaxilə dərəcəsi (birbaşa və dolayı sahiblik);<br>3. Hökumətin kreditlərin paylanmasına təsiri;<br>4. Maliyyə və kapital bazarlarının inkişaf səviyyəsi;<br>5. Xarici rəqabətə açıqlıq.</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Sığorta sahəsində qanunvericilik çərçivəsinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı işlərin aparılması, sığorta bazarının iştirakçılarının texnoloji infrastrukturu üzrə normativ tələblərin formalaşdırılması;</td><td>İl ərzində</td><td>Mərkəzi Bank</td><td>Vüsal Qurbanov</td></tr>
<tr><td>2. Ödəniş sistemi operatorlarının və bank olmayan ödəniş xidməti təchizatçılarının fəaliyyətləri üzrə tənzimlənmə çərçivəsinin formalaşdırılması;</td><td>İl ərzində</td><td>Mərkəzi Bank</td><td>Kəmalə Qurbanova</td></tr>
<tr><td>3. Kapital bazarları vasitəsilə maliyyələşmə üstünlüyü barədə KOB subyektlərinin məlumatlandırılması.</td><td>01.12.2023</td><td>İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA)</td><td>Mehdi Həsənov, İlkin Əliyev</td></tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal İnnovasiya İndeksi*** | | | | | | | |
| 9. | **4.1.1. Startaplar üçün maliyyə əlçatanlığı** | m/y | Bu göstərici maliyyə ekspertlərinin startaplar üzrə orta qavrayış xallarını əks etdirir. Müxtəlif sahələr üzrə ekspertlər (məqsədli seçmə, ildə minimum 36 ekspert) öz ölkələrində sahibkarlıq şəraitini bəyanatlar (1=tamamilə yanlış; 10=tamamilə doğru) vasitəsilə qiymətləndirirlər. | 1. Startap fəaliyyətinin genişləndirilməsi istiqamətində təşviqedici tədbirlərin davam etdirilməsi; | 01.12.2023 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Mehdi Həsənov, İlkin Əliyev |
| | | | | 2. Vençur Fondu vasitəsilə maliyyələşmənin genişləndirilməsi, startap ekosisteminin təkmilləşdirilməsi və dövlət sektoru ilə özəl sektorun birgə fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində tədbirlərin görülməsi. | 01.12.2023 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi | Şahin Babayev, Mehdi Həsənov |
| 10. | **4.1.3. Mikromaliyyə təşkilatları tərəfindən verilən kreditlər** | m/y | Ölkədəki bütün mikromaliyyə təşkilatlarının kreditlərinin ÜDM-ə nisbəti | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Mikromaliyyə və qeyri-bank maliyyə sektorunun inkişafı strategiyasının layihəsinin hazırlanaraq Komissiyaya təqdim edilməsi; | 01.07.2023 | Mərkəzi Bank | Rüstəm Tahirov |
| | | | | **2.** “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklərin edilməsinə dair layihə qəbul edildikdən sonra, müvafiq yeni normativ sənəd layihələrin hazırlanması və tətbiqi. | İl ərzində | Mərkəzi Bank | Xəyyam İsmayılov |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 11. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hüquqi aktların ingilisdilli versiyalarının hazırlanması, mütəmadi yenilənməsi, bununla bağlı müvafiq beynəlxalq təşkilatların əlaqəli şəxslərinin məlumatlandırılması istiqamətində aidiyyəti qurum tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən həmin quruma zəruri dəstəyin göstərilməsi. | Mütəmadi | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 12. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi. | Mütəmadi | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 13. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupları ilə əməkdaşlığın genişləndirilməsi və ölkədə faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması. | Mütəmadi | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |